UOT 902(4/9)

# XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCANIN MİNGƏÇEVİR VƏ ƏTRAF BÖLGƏLƏRİNİN MADDİ MƏDƏNİYYƏTİ. TƏSƏRRÜFAT TİKİLİLƏRİ (ETNOQRAFİK TƏDQİQAT)

**Aygün Raqif qızı Qədirova**
tarix üzrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universiteti
aygun.qedirova@mdu.edu.az

***Xülasə:*** *Mingəçevir və ətraf bölgələri əhalisi tarixən çoxlu məskən tipləri və təsərrüfat tikilililəri yaratmış, onların əksəriyyəti XIX-XX əsrin əvvəllərinə qədər gəlib çatmışdır. Burada illərlə formalaşan məskən tipləri və təsərrüfat tikilililərinə sosial-siyasi, təbii-coğrafi, texniki və iqtisadi amillərin fəal təsiri olmuşdur. XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanın Mingəçevir və ətraf bölgələri əhalisinin istifadəsində olan təsərrüfat tikilililəri öyrənilməsində arxeoloji qazıntılar zamanı əldə edilən materiallar, muzeylərimizdə saxlanılan eksponatlar, yazılı qaynaqlar və müasir dövrümüzə qədər gəlib çatmış təsərrüfat tikilililəri mühüm rol oynayır.*

***Açar sözlər:*** *maddi mədəniyyət, təndirxana, quraqlıq, dəyirman, dabbaqxana, kümxana və dəmirçixana*

## Giriş

Bəhs olunan dövrdə Mingəçevir və ətraf bölgələri əhalisinin istifadəsində olan təsərrüfat tikililəri əhalinin təsərrüfat məşğuliyyətinin istiqaməti və bir sıra sosial-siyasi və iqtisadi amillərin təsiri ilə tarixən formalaşmış, müxtəlif etnoqrafik səciyyə kəsb etmişdir. Bu mikrobölgədə də təsərrüfat tıkilililəri etnoqrafik səciyyəsinə görə üç qrupda cəmlənmişdi:

1. Məişətlə bağlı təsərrüfat tikililəri.
2. Heyvandarlıqla bağlı təsərrüfat tikililəri.
3. İstehsal binaları.

## 1. Məişətlə bağlı təsərrüfat tikililəri

Əhalinin təsərrüfat məşğuliyyətinin yönümündən asılı olaraq Azərbaycanın Qərb və Gəncəbasar bölgələrində olduğu kimi [1, s.89-90], məişətlə bağlı təsərrüfat tikililəri arasında təndirxana, quraqlıq, talvar-tərəcə, əldamı, taxıl quyusu və s. əsas yer tuturdu. Keçmişdə hər bir kəndli ailəsində çörək, əsasən, ev şəraitində bişirildiyindən, həyətlərin hamısında təndirxanaya rast gəlmək olardı. Təndirxanada sac çörəyi, eləcə də xörək bişirmək üçün ocaqlıq (qarım) və təndir çörəyi bişirmək üçün yerüstü təndir qurulurdu. Atmosfer çöküntülərindən bu çörəkbişirmə vasitələrini mühafizə etmək üçün təndirxananın üzərində dörd dirək üstündə çardaq qurulurdu.

Məişət və təsərrüfat alətlərini əl altında saxlamaq üçün hər bir kəndli həyətinin "eşik", "çöl" və ya "qapı" adlanan səmtində tikilən quraqlığın əhəmiyyəti böyük idi. Adətən quraqlığa məişətdə və təsərrüfatda istifadə olunan əmək alətləri (bel, balta, dəhrə, yaba, şana, kürək, vəl, boyunduruq, mala, xış, təknə-tabaq, nehrə, araba, yəhər-palan dəsti, qoşqu ləvazimatı, meyvə səbəti, taxıl kəndisi -saqan və s.) yığılırdı.

Bir qayda olaraq yanları açıq saxlanan quraqlığa bəzi kəndlərdə "altıaçıq" da deyilirdi. İsti yay günlərində burada hətta nəhrə çalxalanır, süd emal olunur, yun didilir, daraqdan keçirilir, cəhrə ilə ip əyrilir, hana qurulurdu. Quraqlığın dam örtüyü yastı olduğundan, oraya ot tayası da yığmaq olurdu.

Hər bir kəndli həyətinin məişət bölməsində qurulan talvar-tərəcənin üzərinə yay aylarında gündəlikdə istifadə olunan xörək və çay dəstləri yuyulub yığılır, üstünə nazik parça və ya cuna salınır, altına isə su qabları (güyüm, səhəng, kuzə, bardaq, dolça), xörək qazanları və s. qoyulurdu.

Kəndli məişətindəki zəruri təsərrüfat tikililərindən biri də əl damı idi (şək. 1).



**Şək. 1**

Əl damında əsasən ehtiyat ərzaq məhsulları, ailənin gündəlik dolanışığını təmin edən ərzaqlar - pendir motalı, 4-5 öynəlik çörək, ət və süd məhsulları, un-dən ehtiyatı, quru meyvə, qovurma və s. saxlanırdı. "Lənkəran-Astara bölgəsində ona fakun, uja, və ya ginəbın, Naxçıvanda isə əl-ovuc damı deyilirdi" [2, s.84]. Bəzən əl damının içərisində kvadrat və ya dairəvi formada taxıl quyusu da qazılır, quyunun dibinə suvaq çəkilir, divarı quzulayıb tökülməsin deyə, güləşi nazik çubuqlar vasitəsi ilə divara kipləşdirir, ağzına yastı daş qoyub torpaqladıqdan sonra üstünü də suvayırdılar [3, s.41].

**3. Heyvandarlıqla bağlı təsərrüfat tikililəri**

Tədqiq etdiyimiz bölgənin köçmə-maldar elat əhalisinin təsərrüfat məişətində heyvandarlıq mühüm təsərrüfat sahəsi kimi ayrıldığından, onların istifadəsində olan təsərrüfat tikililərinin böyük bir qismi bu sahə ilə bağlı idi.

1.İribuynuzlu mal-qara üçün nəzərdə tutulan tövlə və ya pəyə (sığırxana).

2.Qoyun-quzu üçün nəzərdə tutulan qazma və ya yerüstü yataq, ağıl, kərəskə, küz, poru və s. əsas təsərrüfat tikililəri hesab olunurdu.

Əsasən qışlaqda inşa olunan mal damı bölgə kəndlərində tövlə, pəyə və ya sığırxana adlanırdı. İnşaat texnikasına görə qazma evlərlə eynilik təşkil edən mal damının həcmi saxlanan heyvanların sayından asılı olaraq iri ölçüdə olurdu. Onun işərisində axur düzəldilir, danalıq, buzovluq və bordaq yeri kimi guşələr olurdu. Mal damının örtüyünə çoxlu ağac materialı sərf olunduğundan, lazım olan kərən, tir, dirək, pərdi və s. kimi materialları bu tərəflərdə "Çaqqallı meşəsi" adı ilə məşhur olan meşədə bitən qarağac, saqqız, palıd, ağcaqovaq, meşə söyüdü, iydə, tut, cökə ağaclarından tədarük edir, dördtəkər arabalarda daşıyırdılar. XX əsrin əvvəllərindən başlayaraq mikrobölgədə yerüstü, divarları kərpicdən hörülən, üstü qarğı-qamışla örtülüb suvanan yastı damlı və ya iki sinə dam örtüklü tövlələrin (pəyələrin) tikintisinin artdığı müşahidə olunurdu.

Heyvandarlıqda üstün sahə qoyunçuluq olduğundan, qoyun bəsləmək üçün inşa olunan təsərrüfat tikililərinin sayı da çox idi. Bir qayda olaraq, qışlaqlarda qoyun yatağı tikirdilər. Yataq, bəslənən heyvanın sayından asılı olaraq təx. 50-60 m. uzunluğunda və 10-12 m. də enində tikilirdi. Bölgədə qoyun yatağının həm yarımqazma və yarımyerüstü, həm də yerüstü formaları geniş yayılmışdı. Yaylaq yerlərində, eləcə də kəndli həyətlərində qoyun-quzunu ağılda saxlayırdılar. Ağıl az sayda heyvan saxlamaq üçün nəzərdə tutulur, adətən, üstü açıq olurdu. Üstü bağlı düzəldildikdə isə "ağılın dam örtüyü tövləyə nisbətən alçaq və mafraq olurdu. Ənənəvi təsərrüfat tikililərinin bu növü Xəzəryanı düzənliyin əhalisi arasında "paraq", Azərbaycanın qərb bölgəsində isə yay mövsümündə heyvan salınan və "xalxal" adlanan çəpərlənmiş sahəyə "paraq" deyilirdi. Quba bölgəsinin bir sıra kəndlərində isə ağıl və ya paraq əvəzinə "məgəl" istilahı işlənirdi. Qarabağda buna "kərəskə", Qazaxda "kəriksə", Borçalıda "kərəksə" deyilirdi" [4, s. 123-124]. Qoyunçuluq təsərrüfatlarında quzuları bəsləmək, qoç və keçilərin onları zədələməməsi, sağın zamanı analarından ayırıb ayrıca saxlamaq üçün küz və poru adlanan çubuqhörmə bölmələr tikirdilər. Adətən küz və poru yatağın və ya ağılın içərisində - bir küncdə tikilir, dairəvi formada olurdu.

Bütün bunlardan başqa, hər bir kəndli həyətində it damı və toyuq hininin olması da vacib məsələlərdən biri idi.

Maldar-elatların başlıca qayğılarından biri də qış üçün ot-yem ehtiyati görmək olduğundan, onu saxlamaq üçün xüsusi mərək və samanlıq kimi təsərrüfat tikililəri inşa edirdilər. Mərəklərin divarları əksər hallarda çubuq və qarğı hörgülərdən ibarət olurdu. Ot-alafı mərəyin içində və üstündə saxlayırdılar [5, s.139]. Bu məqsədlə bəzən xüsusi olaraq ot talvarı da inşa edirdilər. Samanlığı tikmək üçün həm düzbucaq plan boyunca, həm də tikilinin tam ortası boyunca yerə bir-birindən 1,5 m. aralı haça dirəklər basdırır, onların haçasına yoğun millər atır, millərin üzərinə isə "zulaça" adlanan yarmaçalar qoyurdular. Bundan sonra zulaçaların üzəri küləş, avar, carcı, yulğun şaxı və s. ilə basdırılır, saman qatılan palçıqla yüngül suvanırdı. Tikilinin ətrafı boyvəboy qarğı ilə hörülür, qapısı isə çubuqdan səbəthörmə qapılıqla örtülürdü. Samanı da buradan qoyub-götürürdülər.

**3. İstehsal binaları**

Mikrobölgə əhalisinin təsərrüfat tikililərinin (şək. 2) bir qismini də istehsal binaları :

1. Dəyirman,
2. Dabbaqxana,
3. Kümxana,
4. Dəmirçixana.

Demək olar ki, hər bir kənddə dəyirman və dəmirçixana vardı. Dəyirman kənddən aralı, su mənbələri (arx, kanal, çay) üzərində tikilsə də, dəmirçixana kənd içində və ya ustanın özünün həyətində təkotaqlı tikilidən ibarət olurdu. Dəmirçixananın qapı və pəncərə açırımları geniş olur, içərisinə körük, zindan, iş alətləri, girdə masa və s. yerləşdirilirdi. Burada əsasən məişət və təsərrüfata aid əmək alətləri – bel tiyəsi, oraq, balta, dəhrə, yaba, gavahın, kərənti ağızlığı, toxa, sac, sacayağı, maşa, əl çırağı, odun peçi, tüstü borusu və s. hazırlanırdı.

Dabbaqxana (gön aşılama) binası kənddən aralı, axar su üstündə inşa olunurdu. İslanan dəri kəsif iy verdiyindən, belə təsərrüfat tikilisinin kənddən kənarda inşa olunması məqsədəuyğun hesab olunurdu.

Mingəçevir və ətraf bölgələri əhalisinin təsərrüfat məişətində ipəkçilik xüsusi yer tutduğundan, burada ipəkqurdu bəsləmək üçün də xüsusi tikiliyə ehtiyac var idi. N.A.Arasxaniyans yazırdı ki, "Ərəş qəzasında ipəkqurdunu Nuxa qəzasında olduğu kimi, evlərin çardaqlarında deyil, xususi olaraq bu məqsədlə inşa olunmuş tikililərdə - kümxanalarda bəsləyirdilər. Kümxananı qəzada bol yetişən qamışdan tikirdilər. Kümxananın divarı çox da hündür olmurdu. İpəkqurdu toxumunu əvvəlcədən "oyatmaq üçün" kümxananın içərisinə yerləşdirilən hündürlüyü 1-1,5 arşın, uzunluğu isə 1 sajenə qədər olan xüsusi düzəldilən masaların üstünə yığırdılar. Yarım funt ipəkqurdu toxumunun oyadılması üçün hər kümxanada 6-7 ədəd belə masa qoyulurdu. Bu isə onsuz da darısqal olan kümxananın interyerini bir az da darısqal edirdi" [6, s.168].



**Şək. 2**

**Nəticə**

Məqaləyə yekun vuraraq qeyd edə bilərik ki, XIX-XX əsrin əvvəllərində tədqiq etdiyimiz mikrobölgənin maddi mədəniyyətinin tərkib hissəsi olan təsərrüfat tikililəri tarixi zəmin əsasında yaranıb formalaşmış, təbii-coğrafi şəraitin, ərazinin relyef-landşaft zonallığının, əhalinin təsərrüfat fəaliyyətinin yönümünün, sosial-iqtisadi inkişafın tədqiq olunan dövrə uyğun real səviyyəsinin, sosial mənsubiyyət və ictimai təbəqələşmənin bu sahədə olduqca böyük rolu olmuşdur. Azərbaycanın Gəncəbasar, Qarabağ və qismən Şəki-Zaqatala bölgələri ilə sərhədlənən Mingəçevir və ətraf bölgələri əhalisinin maddi mədəniyyətinə aid olan təsərrüfat tikililərinə dair topladığımız etnoqrafik-çöl materialları, eləcə də mövcud ədəbiyyat göstəricilərinin tarixi-müqayisəli təhlili nəticəsində tədqiqat işi aparılmışdır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Велиев, Ф.И. О хозяйственных постройках западной зоны Азербайджана // - Баку: АЭИА (1985). Элм, -1985. - с. 89-90.
2. Vəliyev, F.İ. XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat). // F.Vəliyev.- Bakı: Tar.elm dok...dissertas., - 2007. -362 s.
3. Bünyadov, T.Ə. Azərbaycanda əkinçiliyin inkişafı tarixinə dair / T.Ə.Bünyadov. - Bakı: Azərb.SSR EA nəşri, - 1964. - 152 s.
4. Mustafayev, A.N. Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat) / A.N.Mustafayev.-Bakı: Bakı Universiteti nəşriyyatı, -2009. - 420 s.
5. Həvilov, H.A. Azərbaycan etnoqrafiyası / H.A.Həvilov. -Bakı: Elm, -1991. - 256 s.
6. Арасханианц, А.Н. Экономический быт государственных крестьян Арешского уезда Елисаветпольской губернии // А.Н.Арасханианц.-Тифлис: МИЭБГКЗК, Типография А.А.Михельсона, Головинский просп. № 12-й, - 1887. т. VII, - с. 141-216.

# MATERIAL CULTURE OF MINGACHEVIR AND SURROUNDING REGIONS OF NORTHERN AZERBAIJAN IN THE EARLY XIX-XX CENTURIES. FARM BUILDINGS (ETHNOGRAPHIC RESEARCH)

**A.Gadirova**
Doctor of Philosophy in History
Mingachevir State University

***Abstract:*** *The population of Mingachevir and its surrounding regions historically created many types of dwellings and farm buildings, most of them reached the beginning of the 19th-20th centuries. Social-political, natural-geographical, technical and economic factors have had an active influence on the types of dwellings and farm buildings formed here over the years. Materials obtained during archaeological excavations, exhibits stored in our museums, written sources and farm buildings that have reached our modern times play an important role in the study of farm buildings used by the people of Mingachevir and surrounding regions of Northern Azerbaijan at the beginning of the XIX-XX centuries.*

***Keywords:*** *material culture, tannery, drought, mill, tannery, sand pit and forge*

# МАТЕРИАЛЬНАЯ КУЛЬТУРА МИНГЯЧЕВИРА И ОКРУЖАЮЩИХ РАЙОНОВ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА В НАЧАЛЕ XIX-XX ВЕКА. ФЕРМЕРСКИЕ ПОСТРОЙКИ (ЭТНОГРАФИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ)

**А.Р.Гадирова**
доктор философии по истории
Мингячевирский государственный университет

***Резюме:*** *Население Мингячевира и прилегающих к нему районов исторически создавало множество типов жилищ и хозяйственных построек, большинство из них достигло начала XIX-XX веков. Социально-политические, природно-географические, технические и экономические факторы оказали активное влияние на формировавшиеся здесь на протяжении многих лет типы жилищ и хозяйственных построек. Материалы, полученные в ходе археологических раскопок, экспонаты, хранящиеся в наших музеях, письменные источники и дошедшие до наших дней хозяйственные постройки играют важную роль в изучении хозяйственных построек, использовавшихся жителями Мингячевира и прилегающих районов Северного Азербайджана в начале XX века. XIX-XX вв.*

***Ключевые слова:*** *материальная культура, кожевенный завод, засуха, мельница, кожевенный завод, карьер и кузница*

**Elmi redaktor: s.e.f.d., dos. E.Cəfərova**
**Çapa təqdim edən redaktor: tar.f.d., dos. N.Zeynalov**
**Daxil olub: 28.09.2024**
**Çapa qəbul edilib: 08.09.2024**